# Müstəqilliyimiz əbədidir, dönməzdir

Qəbələ Rayon Heydər Əliyev Mərkəzində "Konstitusiya və Suverenlik İli" çərçivəsində 28 May - Müstəqillik Günü münasibətilə "Müstəqilliyimiz əbədidir, dönməzdir" adlı tədbir keçirilib. Qəbələ Rayon İcra Hakimiyyətinin, Heydər Əliyev Mərkəzinin, GİKM-nin Qəbələ bölməsinin, Qəbələ regional "ASAN xidmət" mərkəzinin, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, fəaliyyətindən, demokratik hüquq və azadlıqların bərqərar olmasından ətraflı söz açıb, müstəqilliyimizin keşməkeşli yollarından, milli dövlətçiliyimizin parlaq səhifələrindən danışıb. Digər çıxış edənlər xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və bu gün onun siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyevin dövlətçilik tariximizdəki misilsiz xidmətləri sayəsində Azərbaycanın müstəqilliyinin qorunub saxlanıldığını, dünyəvi dövlət quruculuğu yolunda ölkəmizin inamla irəliləməsinə nail olunduğunu qeyd etmişlər. Sonda gənclər arasında "Kahoot" platforması üzərindən intellektual yarış təşkil olunmuş, qaliblərə hədiyyələr təqdim olunmuşdur.



### 28 May - Müstəqillik Günüdür

# Tarixə nəzər saldıqca

Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur

1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində AXC-nin qurucularının- Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olub. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunub.



Şərqdə ilk demokratik respublika olan AXC Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. İlk dövrdə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətlərindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması vəzifələri AXC hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir. Yarandığı gündən Azərbaycanın milli dövlətçiliyini formalaşdıran, xalqın sosial və mənəvi tərəqqi yolu ilə irəliləməsinə, milli özünüdərk şüurunun yetişməsinə, yüksəlməsinə, dünya sivilizasiyasına qovuşmasına şərait yaradan hökumət üzvləri müəyyən mənada istəklərinə nail oldular. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan AXC bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan yaratmışdı. Sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərmişdi.

Azadlıq istəyi AXC-nin İstiqlal Bəyannaməsində də qeyd olunurdu: «Bütün azadlıqlardan uca tutduğumuz ən qiymətli azadlıq bizim müstəqilliyimizdir. Biz onu göz bəbəyi kimi qoruyacağıq.» Ulu Öndər Heydər Əliyev bildirirdi ki, Azərbaycanda ilk demokratik respublikanın yaranması xalqımızın milli azadlığa, müstəqilliyə və demokratiyaya olan istək və arzularının, göstərdiyi cəhdlərin ifadəsi olmuşdur. «Ancaq Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Bir tərəfdən Rusiyada bolşevik hakimiyyəti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək Azərbaycana yönəlmişdi, respublikamızın daxilində o cəhdləri dəstəkləyən qüvvələr onunla birləşmişdi. Onlarla yanaşı olaraq, Azərbaycan Demokratik Respublikasının hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr bu demokratik respublikanın ləğv olunmasına gətirib çıxarmışdı.»

İkinci Qarabağ müharibəsindəki Zəfərimiz AXC qurucularının müstəqil Azərbaycan naminə çəkdikləri zəhmətin, ideyalarının reallaşması idi. 44 gün davam edən Vətən müharibəsindəki Qələbəmizlə, 23 saatlıq antiterror əməliyyatları ilə Azərbaycanın suverenliyinin tam təmin edilməsi ilə 23 ay yaşayan Cümhuriyyət fədailərinin istəklərini doğruldan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev varisilik ənənələrini qətiyyəti, siyasi iradəsi, dünyada artan nüfuzu ilə təsdiqlədi. Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciət edən Prezident, Ali Baş Komandan İlham Əliyevin «Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!» sözləri eyni zamanda AXC qurucularının müstəqillik ideyalarına sadiqlik rəmzi idi.

Ölkəmizin dünyanın enerji və nəqliyyat xərtəsinin dəyişməsi reallığının beynəlxalq səviyyədə dəstəklənməsi müstəqilliyimizin məntiqi nəticəsidir. Türk Dövlətləri Təşkilatına (TDT), Qoşulmama Hərəkatına (QH) və digər mühüm qurumlara sədrliyi müddətində həyata keçirdiyi yeniliklərlə də Azərbaycanı dünyada multikultural dəyərlərə sadiq tolerant dövlət kimi tanıdan Prezident İlham Əliyev ölkəmizi «yaşıl enerji», alternativ enerji məkanı kimi də tanıdır. Bu il COP29-a ev sahibliyimiz və bu istiqamətdə görülən işlər, bərpaolunan enerji sahəsində atılan mühüm addımlar, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilməkdə olan «ağıllı şəhər» və «ağıllı kənd»" konsepsiyası, «xalis sıfır emissiya" zonası» və «yaşıl enerji»" layihələrinin icrası günümüzün reallığıdır.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Heydər Əliyev-102

Lider - müdrik və uzaqgörən, prinsipial və qətiyyətli, qlobal proseslərin istiqamətini və gedişatını dəyişdirməyi bacaran, ali idarəçilik və təşkilatçılıq qabiliyyəti olan, xalq arasında xüsusi nüfuza malik insanlara deyilir. Azərbaycanın XX əsr tarixinin böyük bir hissəsi Heydər Əliyev şəxsiyyəti, onun genişmiqyaslı quruculuq fəaliyyəti ilə bağlıdır. Ümummilli liderin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq öz müstəqilliyinə qovuşduğu tarixi mərhələ, onun həyat yolu isə öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin təcəssümü, ümummilli məqsədlər uğrunda fədakarlığın və mübarizənin rəmzi olmuşdur. Hələ 1969-cu ildə Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev respublikamızın uğurlu inkişafını təmin edərək onu ittifaq miqyasında birincilər sırasına çıxarmağa nail oldu. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 17 noyabr 1990-cı ildə Heydər Əliyevin sədrliyi ilə keçirilmiş sessiyasında Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adının və Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunması, Azərbaycan Respublikasında dövlət rəmzləri haqqında məsələyə baxılması və milli-tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayraq, gerb və himnin qəbul edilməsi barədə Azərbaycan Ali Məclisi qarşısında məsələ qaldırılması ulu öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində müstəqillik yolunda atılmış ilk addım oldu. Kommunist partiyasının fəaliyyətinə xitam verilməsi və mülkiyyətin milliləşdirilməsi məsələlərini müzakirəyə çıxaran Muxtar Respublikanın Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyası isə müstəqil dövlətçilik yolunda ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən mühüm hadisə oldu.

Heydər Əliyevin 9 iyun 1993-cü ildə Bakıya qayıdışı və iyunun 15-də Ali Sovetin sədri seçilməsi ilə başlayan növbəti 10 il Azərbaycanda müstəqil dövlətin qurulduğu, möhkəmləndirildiyi və gələcək inkişaf üçün təməllərin yaradıldığı mühüm tarixi mərhələdir. 1993 - 2003-cü illərdə Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin işğal edildiyi bir şəraitdə ictimai-siyasi sabitliyin, təhlükəsizliyin təmin olunması, dövlət idarəçiliyi mexanizminin və iqtisadi sistemin yenidən qurulması, beynəlxalq əlaqələrin və xalqın ali məqsədlərinə uyğun əsaslı təşkili kimi məsələlər qısa zamanda həll edildi. Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin əsasları yaradıldı. Bu əsaslar ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuşdur.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına uyğun təkmilləşdirilərək həyata keçirilmiş milli inkişaf strategiyasının əsas hədəfi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası olmuşdur. Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin məqsədyönlü və prinsipial siyasəti sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi dünyanın bütün dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınmış, ölkəmizin işğal altında olan əraziləri üzərində hüquqi, tarixi və mənəvi haqqı qəbul edilmiş, Ermənistanın və onun havadarlarının torpaqlarımızda ikinci erməni dövləti yaratmaq cəhdləri nəticə verməmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev beynəlxalq birliyin laqeydliyi və selektiv yanaşması fonunda Ermənistan Azərbaycan münaqişəsinin ədalətli həlli üçün güc amilinin önəmini aydın görmüş, müasir və güclü dövlət quruculuğunu, milli həmrəyliyin təmin edilməsini, ölkənin bütün resurslarının vahid məqsəd uğrunda səfərbər olmasını həyata keçirdiyi siyasətin başlıca istiqamətləri kimi müəyyənləşdirmişdir. Buna görə də 2003 - 2020-ci illərdə bütün sahələrdə dərin islahatlar həyata keçirilmiş, Azərbaycanın sürətli və dinamik inkişafı təmin edilmişdir. Azərbaycan artıq öz iqtisadi, siyasi, hərbi və mədəni potensialına görə Cənubi Qafqazın lider ölkəsi, siyasi və iqtisadi mərkəzinə, Avrasiya məkanının yeni orta güc aktoruna çevrilmişdir.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd olunduğu kimi, "Ulu öndərin qurduğu dövlət indi xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

**Araz AĞAYEV,**
**"Qəbələ"nin ştatdankənar**
**müxbiri.**